Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Narkomaniya – Gələcəkisz gələcək

**Bakı-2017**

**Tərtibçi:** **Sevil Əhmədova**

**“Narkomaniya – gələcəksiz gələcək”- ədəbiyyat siyahısı/** tərt.ed. S.Əhmədova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. - Bakı, 2017. – 9 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017.**

***İnsanın düzgün tərbiyəsi, sağlamlığı, cəmiyyətdə saf mövqeyi qarşıda duran ən böyük vəzifələrdən biridir. Bu vəzifənin yerinə yetirilməsi üçün cəmiyyətin hər bir üzvü məsuliyyət daşıyır. Heç kəs bu işdən kənarda qalmamalıdır. Düşünmək lazımdır ki, gələcək bu gündən başlayır.***

**S.Xəyal**

...5.3. Müvafiq icra hakimiyyəti orqanları gənclərin mənəvi-əxlaqi tərbiyəsi, onlar arasında cinayətkarlığın, narkomaniyanın və digər mənfi meyillərin azaldılması və aradan qaldırılması üçün tədbirlər həyata keçirirlər.

***"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu***

**...Maddə 5. Narkoloji xidmətin və nəzarətin həyata keçirilməsinin ümumi şərtləri**

5.2. Dövlət narkoloji xəstəliklərin qarşısının alınması, belə xəstəliklərin erkən müəyyən və müalicə edilməsi, narkoloji xəstələrin səhhəti və psixoloji vəziyyəti üzərində tibbi nəzarətin həyata keçirilməsi və bu xəstələrin cəmiyyətə qovuşması üçün şərait yaradır.

5.3. Narkoloji xəstələrə onların maddi vəziyyətindən asılı olmayaraq narkoloji yardımın göstərilməsinə, habelə bu şəxslərin sağlamlığı üzərində ixtisaslaşdırılmış tibbi nəzarətin həyata keçirilməsinə dövlət tərəfindən təminat verilir.

5.4. Azərbaycan Respublikasının ərazisində narkoloji xəstələrin müalicəsi bir qayda olaraq könüllülük əsasında həyata keçirilir. 18 yaşına çatmamış şəxs narkoloji tibb

müəssisəsinə valideynlərinin və ya onun qanuni nümayəndəsinin razılığı (xahişi) ilə yerləşdirilir. Narkoloji xəstələrin məcburi müalicəsinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yalnız məhkəmənin hökmü əsasında yol verilir.

5.6. Azərbaycan Respublikasının ərazisində narkoloji xidmət və nəzarət konfidensiallıq və anonimlik əsasında həyata keçirilə bilər. Narkoloji xəstələrin qeydiyyatının aparılması zamanı xəstənin səhhətinin vəziyyəti haqqında məlumatların konfidensiallığı təmin edilməlidir. Hər hansı şəxs barəsində narkoloji yardımın həyata keçirilməsinə dair məlumatlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada verilə bilər.

***Narkoloji xidmət və nəzarət haqqında Azərbaycan Respublikasının Qanunu***

*Ədəbiyyat siyahısı*

**1."Cəzaçəkmə müəssisələrində HİV/AİDS** - in profilaktikası". Məhkum qadınlar üçün təlim modulu = "Профилактика ВИЧ - СПИД-а в пенитенциарных учреждениях": Модуль тренинга для женщин в местах заключениях. - Bakı : [s. n.], 2006. - 42 s. - Azərbaycan və rus dillərində.

**2.Əfəndiyeva N**. Gəlin söhbət edək. – Bakı : 2006. – 39 s.

3. **Xəyal S**. Narkomaniya // Təbiət, təbabət və insan: tibbi-bioloji yazılar. – Bakı : MBM, 2008. – S.62-64.

**4. Məmmədli R.** Gənc vətəndaşın pasportu. - Bakı : Kitab Klubu, 2011. - 128 s. : rəngli il., rəngli fot.

İnsan doğulduğu gündən axır nəfəsinədək qanunla təmasda olur. Bizim bu kitabça hüquq ensiklopediyası olmasa da, gənclərin (eləcə də böyüklərin) qanunların ciddi, mürəkkəb və maraqlı dünyasına səyahətinə, onun müəyyən mənada yardım göstərəcəyinə əminik. Kitabda yazılanlar adi, elementar və gündəlik hadisələrdir. Kitabın konsepsiyası Endrü Filipsə məxsusdur.

**5. Məmmədov S.** BMT-nin narkotiklər haqqında konvensiyaları və Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi. - Bakı : ADPU, 2006. - 154 s.

Monoqrafiyada Birləşmiş Millətlər Təşkilatının müxtəlif dövrlərdə narkotiklərlə bağlı qəbul olunmuş konvensiyalarını zəruri edən amillər, bəşəriyyət üçün təhlükə mənbəyinə çevrilən bu bəlaya qarşı mübarizə yolları araşdırılır. Kitab elmi ictimaiyyət, tələbələr, hüquq mühafizə orqanlarının əməkdaşları üçün nəzərdə tutulmuşdur

**6. Məmmədov S.** Narkotik cinayətkarlıqların təzahürləri və onlara qarşı mübarizənin problemləri : Cinayət- prosessual aspektlər / S. Məmmədov. - Bakı : ADPU nəşriyyatı, 2005. - 300 s.
Monoqrafiyada narkotik cinayətkarlığın bəzi təzahürləri tədqiq olunur. Yəni, onunla mübarizəni zəruri edən amillərə, beynəlxalq kontekstdə görülən işlərə, narkotik cinayətkarlığın müasir vəziyyətinə aydınlıq gətirilir.

**7. Məmmədov S.** Narkotizmin cəmiyyətdə bəzi təzahürləri və onlara qarşı mübarizə. - Bakı : Şuşa nəşriyyatı, 2004. - 120 s.
Kitabda narkotizmin müxtəlif səpkidə bəzi təzahürləri araşdırılır. Kitab elmi ictimaiyyət, hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr, hüquq-mühafizə orqanlarının əməkdaşları və s. oxucular üçün nəzərdə tutulmuşdur.

**8. Narkomaniya, narkobiznes və** ona qarşı mübarizədə kitabxanaların rolu : Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2012. - 40 s.
Tərtib edilən vəsaitdə respublikamızda narkomaniya və narkobiznesin yayılmasına səbəb olan amillərdən, bu problemə qarşı mübarizədə kitabxanaların qarşısında duran vəzifələrdən, təbliğat vasitələrindən bəhs edilmişdir.

*Bədii ədəbiyyat*

**1.** Abdullayev Ç. Göy mələklər. – Bakı : Çinar, 2009. – 328 s.
İnterpolun əməkdaşları və BMT-nin xüsusiu ekspert qrupunun fəaliyyəti haqqında yazılmış bu sənədli roman qarşısıalınmaz bir bəlaya çevrilmiş və bütün bəşəriyyəti narahat edən narkotiklərlə mübarizəyə həsr edilmişdir.

**2.**Abdullayev Ç. Qisasın ölçüsü. – Bakı : Çıraq, 2008. – 320 s.
Orta Asiyadan Moskvanın gecə klublarına böyük pullar çay kimi axır. Heroin pulları. Bu pullarla minlərlə gənc özlərinə uzunsürən ölümü satın alırlar. Bu pullardan ötrü kriminal qruplaşmalardakı "qardaşlar" bir-birlərinin boğazını üzməyə hazırdırlar. Bu dəhşətli çayın qarşısını kim kəsəcək? Romanda bu mövzudan bəhs edilir.

**3.**Elatlı E. Görünməyən izlər : roman. – Bakı : İdeal-Print, 2010. – 320 s.
Bu günümüz üçün son dərəcə tərbiyəvi əhəmiyyətə malik olan romanda narkomaniyanın gətirdiyi faciələrə ustalıqla toxunulur.

4.**Əliyev A.** Cəhənnəmə gedən yol. - Bakı : Araz, 2007. - 54 s.
Müəllif bu kitabda narkomaniyadan asılılığın yaranma mərhələlərini göstərmiş və bu asılılığın insanın məhvinə aparan səbəblərin izahına çalışmışdır

**5. Fərziyev M.** Tənha canavar : Detektiv roman. - Bakı : Hədəf Nəşrləri, 2013. - 504 s. : foto.
Romanda hadisələr bir-birini sevən iki gəncin qəfildən yoxa

çıxması ilə başlayır. Qızın yandırılmış meyitinin tapılması cinayətin dəhşətli qətl hadisəsi olduğunu ortaya çıxarır. Qatilin axtarışlarının səylə davam etdirilməsi xəfiyyənin iyirmi il əvvəl baş vermiş daha bir hadisənin üstünü açmasına səbəb olur. Qızın ailəsi bu hadisədən xəbərsiz halda illərlə yaşamışdır. Hadisənin qızın qətli ilə əlaqədar olduğunu aşkara çıxaran xəfiyyə qatili ələ keçirmək üçün onun hər addımını izləmək qərarına gəlir. Bu qanlı hadisələrin fonunda narkomaniya dayanır.

**6. Xanəlizadə E**. Zəncir : roman. – B.: Apostrof, 2013. – 264 s.
Roman Azərbaycan gəncliyinin düşünülmüş şəkildə məhvindən, narkomaniyanın ziyanından bəhs edir.

**7. Kəngərli A.** Bəla : pyes və hekayələr. - Bakı : Mütərcim, 2014. - 140 s. : il., rəngli foto.
Bu kitabda tanınmış həkim, istedadlı yazıçı Asif Kəngərlinin narkomaniya, alkoqolizm və tabakomaniya mövzusunda ilhamla qələmə aldığı pyes və hekayələri toplanıb. Kitabda bu problemlər bədii-sənədli, elmi-tibbi və dini prizmadan çox gözəl şərh olunur.

**8. Kəngərli A.** Səs teatrı: Bəla. Zəhrimar [Elektron resurs]. - Bakı : [s. n.], 2013. - 1 el. opt. disk (CD-DA) ; 12 sm
Bu diskdə tanınmış həkim, istedadlı yazıçı Asif Kəngərlinin narkomaniya, alkoqolizm və tabakomaniya mövzusunda pyes və hekayələri toplanıb.

**9. Qarayev İ.** Məni tanıdınmı?: roman. – Bakı : Çinar-Çap, 2003. – 260 s.

Əsərdə narkomaniyanın cəmiyyətdə yaratdığı fəsadlardan, saf, təmiz adamların bu bəlaya düçar olması səbəblərindən söhbət açılır.

**10. Nağıyev A.** Qara kabus : Bu kitab narkomanlar üçün deyil. - Bakı : Qələm , 2014. - 176 s.
Arzu Nağıyev uzun illər hüquq-mühafizə orqanlarında məsul vəzifələrdə çalışıb. Hazırda cəmiyyət həyatının müxtəlif sahələri ilə bağlı ciddi araşdırmalarla və bədii yaradıcılıqla məşğuldur. "Qara kabus" kitabı bəşəriyyətin ən böyük bəlası olan narkomaniyadan bəhs edir. Xeyli müddət həmin problemin tədqiqi üzərində çalışan müəllif bu kitabında narkomaniyanın mahiyyətini və xüsusiyyətlərini, narkotikadan xilas yollarını elmi və praktik cəhətdən, həm də real həyat faktları əsasında qələmə alıb. "Qara kabus" kltabında bu problemə laqeyd olmayan hər bir valideynin, hər bir insanın bilməli olduğu çox maraqlı məlumatlar da öz əksini tapıb.

**Narkomaniya- Gələcəksiz gələcək**
**(ədəbiyyat siyahısı)**

**Kompyuter yığımı**
**və dizayn:** **Sevil Əhmədova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 06
Çapa imzalanmışdır:17.08.2017
Tirajı:100
Pulsuz.